**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**GÜLŞƏN ZABİT qızı CƏBİ**

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏQLİ MÜLKİYYƏT HÜQUQUNUN KONSTİTUSİYA HÜQUQİ TƏNZİMİ VƏ TƏMİNATLARI

**5607.01 – "Konstitusiya hüququ; Bələdiyyə hüququ"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İ.O.QULİYEV**
Hüquq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **R.M.ASLANOV**
Hüquq üzrə elmlər doktoru

**G.F.Qurbanova**
Hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası

Dissertasiya işinin müdafiəsi "_____" "______________" 2018-ci il tarixdə saat "___________" Bakı Dövlət Universiteti nəzdində təşkil edilmiş FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "___________" 2017-ci il tarixdə göndərilmişdir.

**B/FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru, dosent:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyasının 12-ci maddəsinə əsasən, dövlətin ali məqsədi insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsidir. Konstitusiyanın "Əsas insan və vətəndaş hüquq və azadlıqları" adlanan 2-ci bölməsi əsas insan və vətəndaş hüquq və azadlıqlarını təsbit etmiş, onların həyata keçirilməsi, müdafiəsi məqsədilə hüquqi təminatlar müəyyənləşdirilmişdir.

Hər bir insan hörmətlə yanaşılmağa layiq olan mənəvi-zehni varlıq kimi dəyərlidir. Bu baxımdan insan hüquq və azadlıqlarının tanınması, qorunması müasir dünyanın aktual məsələlərindən hesab olunur. Bu gün insan hüquq və azadlıqları dövlətlərin ərazi sərhədləri ilə məhdudlaşdırılmır, beynəlxalq əhəmiyyət daşımaqla, dövlətlərin və beynəlxalq təşkilatların irimiqyaslı əməkdaşlığının əsas istiqamətlərindən birinə çevrilmişdir.

İnsan hüquq və azadlıqlarının tanınması və müdafiəsi məqsədilə görülən tədbirlərin səmərəliliyi, bu sahədə konstitusiya hüquq normalarının qorunması, eləcə də beynəlxalq öhdəliklərin yerinə yetirilməsi dövlət daxilində həyata keçirilən təşkilati və hüquqi tədbirlərlə sıx əlaqəlidir.

Məlumdur ki, hüquq elmində insanın ölüm anı beyin fəaliyyətinin dayandığı an hesab olunur. Bioloji olaraq və hüquq subyekti qismində insanın ölüm anı beyin fəaliyyətinin dayandığı an olduğu kimi, ən dəyərli mənəvi-zehni varlıq kimi insanın ölümü onun əqli fəaliyyətinin yoxluğundadır. Məhz bu baxımdan özünü ifadə edə bilməsi, inkişafı üçün insanın əqli fəaliyyət azadlığının, əqli fəaliyyətin nəticələrinə olan əqli mülkiyyət hüququnun dövlət tərəfindən tanınması, mühafizəsi, müdafiə mexanizmləri ilə təmin olunması vacib məsələdir.

Müasir dünyanın əsas məsələlərindən biri qloballaşmadır. Biliklər iqtisadiyyatının irəli çəkildiyi müasir qloballaşan dünyada insan fərdinin inkişafı, insan hüquq və azadlıqlarının dövlətlər tərəfindən tanınması ilə xüsusilə aktuallaşan hüquqlardan biri əqli mülkiyyət hüququdur.

Əqli mülkiyyət hüququ insan şəxsiyyətinin özünü ifadəsi və inkişafına imkanlar yaratmaqla yanaşı, iqtisadiyyatın inkişafına bilavasitə təsir edə bilən əsas hüquqlardan biridir. Dünyanın iqtisadi baxımdan inkişaf etmiş dövlətlərinin əqli mülkiyyət məsələlərinə böyük diqqət yetirməsi əqli fəaliyyət ilə iqtisadi inkişaf arasında bağlılığı təsdiq edən faktorlardandır.

İnformasiya cəmiyyətinin inkişafı üçün əqli mülkiyyət potensialından geniş istifadə zəruridir. İnformasiya dövrü yaradıcılar və istehlakçılar üçün

geniş imkanlar yaratmaqla bərabər, informasiyanın internet məkanında yayılması onun qeyri-məhdud auditoriya tərəfindən istifadəsini mümkün edir və hüquqi nizamlanma məsələlərini aktuallaşdırır[1].

Azərbaycan Respublikasında əqli mülkiyyət hüququ ilk dəfə 12 noyabr 1995-ci il tarixli Konstitusiyanın 30-cu maddəsində təsbit edilmiş, həyata keçirilməsi və müdafiəsi üçün hüquqi mexanizmlər müəyyən olunmuşdur. Konstitusiyanın normasına əsasən, müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olarkən qəbul edilmiş Konstitusiyalarda əqli mülkiyyət hüququ nəzərdə tutulmamışdı. Bu səbəbdən hazırda qüvvədə olan Konstitusiyada əqli mülkiyyət məsələləri barəsində müddəaların təsbiti mütərəqqi hadisədir.

Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında bağlanmış 30 may 2006-cı il tarixli Əməkdaşlıq Proqramının 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisində müxtəlif biznes qurumları tərəfindən həyata keçirilən elmi, texnoloji, mədəni və iqtisadi fəaliyyətin müvafiq sahələrində əqli mülkiyyətin rolunun gücləndirilməsi əməkdaşlıq proqramının məqsədlərindən biri olaraq müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan: 2020 Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında qeyd olunmuşdur ki, növbəti illərdə dünya üzrə ticarətin nisbətən daha yüksək sürətlə artacağı, qloballaşma ilə birlikdə regional inteqrasiyaların da genişlənəcəyi gözlənilir. Beynəlxalq ticarət, rəqabət, əqli mülkiyyət və ətraf mühitlə bağlı yeni standartların müəyyənləşəcəyi və bu istiqamətdə beynəlxalq təşkilatların rolunun güclənəcəyi ehtimal olunur. Eyni zamanda, əsas missiyası yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyəti də yüksələcəkdir.

Tədqiqat işinin aktuallığı həm də onunla müəyyən edilir ki, Azərbaycan Respublikasında xüsusilə qeyri-neft sektorunun inkişafı prosesində əqli fəaliyyətin stimullaşdırılması, əqli mülkiyyət hüququnun qanunvericiliklə qorunması dövlət tərəfindən insan hüquq və azadlıqlarına böyük dəyər verildiyini təsdiq etməklə bərabər, real iqtisadi sektorun inkişafı üçün münbit

[1] P.Samuelson, R.Davis. The Digital Dilemma: A Perspective on Intellectual Property in the Information Age. Committee on Intellectual Property Rights and the Emerging Information Infrastructure, Commission on Physical Sciences, Mathematics, and Applications National Research Council, National Academy Press, Washington D.C., 2000, p. 4.

şərtlərin formalaşdırılmasıdır. Məlum olduğu kimi, iqtisadiyyatın qeyri-neft sektoru insanların bazar iqtisadiyyatı prinsiplərinə uyğun qaydada, müxtəlif məhsulların istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi kimi çoxşaxəli fəaliyyətini əhatə edir. Bu prosesdə əqli fəaliyyətin nəticələrinin meydana çıxması, elm, texnika, digər sahələrdə keyfiyyətcə yeni nəticələrin əldə olunması, istehlakçıların tələblərinə uyğun yeni məhsulların yaradılması inkişaf məqsədilə görülən mühüm tədbirlərdəndir. Əqli mülkiyyət potensialı hesabına elm və cəmiyyətin inkişafı üçün əlverişli şərait təmin edilir, əqli mülkiyyətin biliklərə əsaslanan iqtisadiyyatın inkişafında güclü vasitəyə çevrilməsi rəqabət qabiliyyətli iqtisadiyyata dəstək verir. Əqli mülkiyyətin mühafizəsi iqtisadi artıma kömək edir, texnoloji innovasiyalar təşəbbüsünə həvəsləndirir, həmçinin investitsiyalar imkanı yaratmaqla, ölkə vətəndaşları üçün yeni iş yerlərinin açılmasına təkan verir. Tarixən əqli mülkiyyət hüququnun qorunmasının, əqli fəaliyyətin nəticələrinin iqtisadiyyatda, qeyri-neft sektorunda tətbiqinin insan fərdi, cəmiyyətin və dövlətin inkişafında böyük faydalar verdiyi müşahidə olunmuşdur. İqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan Respublikası üçün əqli mülkiyyətin iqtisadi əhəmiyyəti şübhəsizdir.

Əqli fəaliyyətin xüsusi bir növü olaraq yaradıcılıq fəaliyyəti fərqləndirilir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, əqli mülkiyyət hüququ (maddə 30), yaradıcılıq azadlığı (maddə 51), mədəniyyət hüququ (maddə 40), təhsil hüququ (maddə 42), fikir və söz azadlığı (maddə 47), məlumat azadlığı (maddə 50) və digər əsas insan hüquqları və azadlıqları müəyyən edilmişdir. Bu hüquq və azadlıqların hər biri müstəqil olaraq təsbit edilsə də, onların həyata keçirilməsi və müdafiəsi zamanı qarşılıqlı əlaqələrini, bir-birlərinə təsirini inkar etmək mümkün deyil.

Azərbaycan Respublikasında yaradıcılıq azadlığı əsas insan hüquq və azadlıqlarından biri kimi ilk dəfə 12 noyabr 1995-ci il tarixli Konstitusiyada təsbit edilmişdir. Konstitusiyanın 51-ci maddəsinə əsasən, hər kəsin yaradıcılıq azadlığı var və dövlət ədəbi-bədii, elmi-texniki, başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında yaradıcılıq azadlığı ilk dəfə Sovet İttifaqının tərkibində olarkən, 21 aprel 1978-ci il tarixində qəbul edilmiş Konstitusiyada təsbit olunsa da, bu normalarda yaradıcılıq azadlığı insan hüquq və azadlıqlarından biri kimi deyil, vətəndaş hüquq və azadlıqlarından biri olaraq tanınmışdı. Bu baxımdan 12 noyabr 1995-ci il tarixli Konstitusiyada yaradıcılıq azadlığının əsas insan hüquq və azadlıqlarından biri kimi ilk dəfə təsbit edilməsi mütərəqqi hadisədir.

Yaradıcılıq azadlığı yalnız əqli mülkiyyət hüququnun yaranması və inkişafı üçün zəruri şərt qismində çıxış etmir. Yaradıcılıq azadlığı insanın fərdilik, özünü ifadə etmək kimi təbii hüquqlarını da ehtiva edir.

Əqli mülkiyyət hüququ konstitusion hüquqi normalarda təsbit olunmuş insan hüququ olmaqla, hüququn müxtəlif sahələrinə aid normativlər əsasında nizamlana bilmək xüsusiyyətinə malikdir. Belə ki, konstitusiya hüququ, mülki hüquq, cinayət hüququ, inzibati hüquq, informasiya hüququ, əmək hüququ və hüququn digər sahələri tərəfindən tədqiq olunur, sahəvi hüquq normalarında konkretləşdirilir. Əqli mülkiyyət hüququna aid məsələlər daha çox ənənəvi şəkildə mülki hüquqa aid edilən xüsusi normativ-hüquqi aktlarla müəyyənləşdirilirdisə, müasir dövrdə əsas insan hüquq və azadlıqlarından biri olaraq tanınması onun konstitusiya hüququ tərəfindən tədqiqini zəruri edir. Bu baxımdan konstitusiya hüququnda əqli mülkiyyət hüququnun əsas insan hüquqlarından biri kimi araşdırılması yeni və aktual məsələlərdən biridir.

Müasir dövrdə əqli mülkiyyət hüququ yalnız dövlətdaxili hüququn maraq dairəsini əhatə etmir. Əqli mülkiyyət hüququnun tanınması, həyata keçirilməsi, müdafiəsi istiqamətində beynəlxalq hüquq normalarının müəyyənləşdirilməsi dövlətlərin bu sahədə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini göstərir[1]. Əqli mülkiyyət hüquqlarına münasibətdə beynəlxalq standartların müəyyənləşdirilməsi beynəlxalq ticarətin inkişafına əhəmiyyətli təsir göstərir [2].

Müasir anlamda əqli mülkiyyət hüququ ilk olaraq, 1948-ci il tarixli "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi", 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt", 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ın normativlərində insan hüquqlarından biri kimi tanınmış, daha sonra iştirakçı dövlətlərin milli qanunvericilik aktlarında konkretləşdirilmişdir.

Beynəlxalq normalara əsasən, hər bir insanın mədəni həyatda iştirak etmək, elmi tərəqqinin nailiyyətlərindən yararlanmaq və onları tətbiq etmək, özünün müəllifi olduğu elmi, bədii, ədəbi yaradıcılığın nəticəsi olan mənəvi və maddi mənafelərinin qorunması hüquqları tanınır. İştirakçı dövlətlər isə insanların bu hüquqları həyata keçirə bilmələri üçün elm və

---

[1] European Research Area Guidelines on Intellectual Property (IP) Management in International Research Collaboration Agreements between European and Non-European Partners. Produced by the Knowledge Transfer Working Group of the European Research Area Committee, European Commission, 2012, p. 5-6

[2] G.B.Dinwoodie. Methods and Perspectives in Intellectual Property. University of Oxford, UK, The Editor and Contributors Severally, 2013, p. 24

mədəniyyətin qorunmasına, inkişafına, yayılmasına yönəlmiş tədbirlər görməli, elmi tədqiqatlar, yaradıcılıq fəaliyyəti üçün zəruri bütün hüquqlara hörmətlə yanaşmalıdırlar.

Azərbaycan Respublikasında son illər insan hüquqlarının həyata keçirilməsi sahəsində islahatlar aparılmış, milli hüquq normaları təkmilləşdirilmiş, beynəlxlaq hüquq normaları ilə milli hüquq normalarının uyğunlaşdırılması istiqamətində mühüm işlər görülmüşdür. Lakin mövcud müharibə vəziyyəti ilə əlaqədar olaraq, işğal olunmuş ərazilərdə çoxsaylı insan hüquq və azadlıqlarının pozulması ilə bərabər, tarixi və mədəni sərvətlərin işğalçı Ermənistan Respublikası tərəfindən dağıdılması, azərbaycanlıların əqli mülkiyyət, mədəni hüquqlarının kobud şəkildə pozulması beynəlxalq hüquq norma və prinsiplərinə tamamilə zidd olmaqla bərabər, hüquqların reallaşdırılması və müdafiəsində beynəlxalq mexanizmlərin təkmil olmadığını da göstərmişdir.

Əqli mülkiyyət hüququnun əsas insan hüquq və azadlıqlarından biri kimi malik olduğu dəyər, insanların və cəmiyyətin inkişafına göstərdiyi böyük təsir, qloballaşan dünyada dövlətlərin və beynəlxalq təşkilatların əqli mülkiyyət hüququ sahəsində əməkdaşlığının genişləndirilməsi əqli mülkiyyət hüququnun konstitusiya hüquqi tənzimi və təminatları məsələsinin nəzəri-metodoloji baxımdan daha dərindən və ətraflı şəkildə tədqiqini zəruri edir.

**Mövzunun işlənmə səviyyəsi.** Əqli mülkiyyət hüququna aid məsələlər daha çox ənənəvi şəkildə mülki hüquqa aid edilən xüsusi normativ-hüquqi aktlarla müəyyənləşdirilmiş, klassik mənada mülkiyyət anlayışına daxil olan kateqoriya kimi nəzərdən keçirilmiş, bir qayda olaraq, mülki hüquq elmi tərəfindən tədqiq olunmuşdur. Lakin müasir dövrdə əqli mülkiyyət hüququnun əsas insan hüquq və azadlıqlarından biri kimi tanınması əqli mülkiyyətin konstitusiya hüququ tərəfindən tədqiqini labüd edir. İnkişaf etmiş ölkələrdə (ABŞ, Böyük Britaniya, Yaponiya və s.), bir sıra MDB ölkələrində (xüsusilə Rusiya Federasiyası) əqli mülkiyyət hüququnun tədqiqinə xüsusi diqqət yetirilir. Xarici hüquq ədəbiyyatlarında, xüsusilə Rusiyanın, Avropa və Amerika hüquqşünas alimlərinin əsərlərində əqli mülkiyyət hüququnun konstitusiya hüquqi aspektdən öyrənilməsi ayrıca tədqiqat əsəri olaraq ifadəsini tapmışdır.

Belə ki, MDB ölkələrində V.A.Dozorçev, V.V.Belov, Q.V.Vitaliev, Q.M.Denisov, A.Veymarn, L.P.Qalperin, L.A.Mixaylova, N.M.Korşunova, V.O.Kalyatin, D.V.Koval, R.A. Merzlikina-Kvernadze, E.Orkina, S.Petrovskiy, V.Rastyapin və başqaları, Avropa ölkələri və ABŞ-da Alina Ng., Annabelle Lever, Aurora Plomer, Jeanne C. Fromer, Joşua

Fairfield, Laurence R. Helfer, Mark A. Lemley, Peter Drahos, Peter S. Menell, Thomas G. Field Jr., Justin Hughes, Villiam V. Fişer, Felix Oberholzer-Gee və digər müəlliflərin bu istiqamətdə apardığı tədqiqatlar yüksək elmi dəyəri ilə diqqəti cəlb edir.

Azərbaycan hüquqşünaslarından G.H.Kərimov "Beynəlxalq xüsusi hüquqda sənaye mülkiyyəti obyektlərinin hüquqi mühafizəsi" mövzusunda, S.A.Süleymanlı "Mədəni irsin qorunması sahəsində beynəlxalq-hüquqi tənzimetmə və Azərbaycan Respublikasının qanunvericiliyi" mövzusunda hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişlər, S.S.Allahverdiyev "Patent və müəlliflik hüququ" dərs vəsaitini yazmışdır. Qeyd etdiyimiz milli müəlliflər əqli mülkiyyət hüququ məsələsini dərslik, məqalə və ya digər daha ümumi mövzuların müəyyən hissəsi, klassik mənada mülkiyyət hüququnun kateqoriyası kimi nəzərdən keçirmiş, əqli mülkiyyət hüququnun müxtəlif növlərini araşdırmışlar. Lakin Azərbaycan Respublikasında əqli mülkiyyət hüququnun konstitusiya hüquqi tənzimi və təminatları heç vaxt müstəqil kompleks monoqrafik tədqiqatın predmeti olmamışdır.

**Tədqiqatın obyektini** konstitusion hüquq olan əqli mülkiyyət hüququnun konstitusiya hüquqi təminatlarının realizə edilməsi və müdafiəsi zamanı yaranan ictimai münasibətlər təşkil edir.

**Tədqiqatın predmetini** əqli mülkiyyət hüququnun realizə edilməsi və müdafiəsinin konstitusiya hüquqi təminatları ilə bağlı nəzəriyyədə və təcrübədə meydana çıxan hüquqi məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi əqli mülkiyyət münasibətlərinin konstitusion-hüquqi tənzimlənməsi məsələlərini kompleks şəkildə tədqiq etmək, insan hüquqları sistemində əqli mülkiyyət hüququnun yerini müəyyənləşdirmək və əqli mülkiyyət institutunun daha da təkmilləşdirilməsi mexanizmini müəyyən etməkdir.

Qarşıya qoyulan məqsədə nail olunması istiqamətində aşağıdakı vəzifələr müəyyən olunmuşdur:

- Əqli mülkiyyət hüququnun anlayışı və mahiyyətini açıqlamaq;
- Əqli mülkiyyət hüququnun yaranma zərurəti, tarixi və inkişaf mərhələlərini araşdırmaq;
- Əqli mülkiyyətin hüquqi əsasları və xüsusiyyətlərini təhlil etmək;
- Əqli mülkiyyət hüququnun əsas insan və vətəndaş hüquq və azadlıqları sistemində yerini müəyyənləşdirmək;
- Əqli mülkiyyət hüququnun digər hüquqlarla qarşılıqlı əlaqəsini müəyyənləşdirmək;

- Əqli mülkiyyət münasibətlərinin təmin olunmasında hüquqi bazanın təkmilləşdirilməsi və yeni normaların qəbul olunmasının zəruriliyini əsaslandırmaq;

- Əqli mülkiyyət münasibətlərinin hüquqi tənzimlənməsində xarici dövlətlərin zəruri qanunvericilik təcrübəsini öyrənmək;

- Əqli mülkiyyətin müdafiəsinin konstitusion-hüquqi mexanizmini aydınlaşdırmaq;

- Əqli mülkiyyət hüququnun təmin olunmasında dövlət orqanlarının rolu və yerini müəyyənləşdirmək;

- Əqli mülkiyyət hüququnun tənzimlənməsində problemləri müəyyənləşdirmək və onların həlli yolunu göstərmək.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işi yazılarkən ümumhüquqi metodlardan- sistemli təhlil, normativ, elmi və praktik materialların ümumiləşdirilməsi, tarixi yanaşma, xüsusi elmi metodlardan- müqayisəli hüquqşünaslıq və s. metodlardan istifadə edilmişdir. Tədqiqat işində nəzəri və emprik məsələlər, həmçinin informasiyalar uzlaşdırılmış şəkildə təhlil edilmişdir.

**Tədqiqatın nəzəri əsasını** Z.A.Əsgərov, Ə.İ.Əliyev, İ.O.Quliyev, E.H.Nəsirov, K.S.İmanov, M.V.Baqlay, K.Q.Həsənov, V.A.Dozorçev, İ.A.Blizneç, E.A.Lukaşeva, V.T.Batıçko, S.S.Alekseev, V.E.Çirkin, A.P.Serqeyev, L.B.Qalperin, L.A.Mixaylova, V.O.Kalyatin, S.Petrovski, L.A.Okunkova, D.A.Kərimov, A.Minkov, D.V.Dvornikova, S.A.Pyatkina, S.V.Usolçeva, A.İ.Kovalenko, V.V.Lazareva, M.A.Bespalova, V.N.Butilin, Y.D.Mişin, A.V.Lebedev, O.F.Rubin, V.V.Butnev, D.M.Çeçot, S.S.Çelikov V.A.Dozorçev, V.V.Belov, Q.V.Vitaliev, Q.M.Denisov, A.Veymarn, L.P.Qalperin, L.A.Mixaylova, N.M.Korşunova, V.O.Kalyatin, D.V.Koval, R.A. Merzlikina-Kvernadze, E.Orkina, S.Petrovskiy, V.Rastyapin, Cosef E. Stiqlits, Alina Ng., Annabelle Lever, Aurora Plomer, Mark A.Lemley, Jeanne C. Fromer, Joshua Fairfield, Justin Hughes, Laurence R. Helfer, Mark A. Lemley, Peter Drahos, Peter S. Menell, Thomas G. Field Jr., Villiam Fisher, Georq Vilhelm Hegel, Con Lokk, Tomas Peyn və digər alimlərin əsərləri təşkil edir.

**Tədqiqatın normativ bazasını** Azərbaycan Respublikasının Konstitusiyası, əqli mülkiyyət münasibətlərini tənzimləyən Qanunlar, Azərbaycan Respublikası Prezidentinin Fərmanları və Nazirlər Kabinetinin Qərarları, Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələr, o cümlədən ayrı-ayrı xarici ölkələrin dövlətdaxili qanunvericiliyi təşkil edir.

**Tədqiqatın empirik əsasları.** İşin yazılmasında əqli mülkiyyət hüququnun konstitusiya hüquqi tənzimi və təminatlarına dair Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin statistik məlumatlarından, Azərbaycan Respublikası Ali Məhkəməsinin, müxtəlif ictimai birliklərin bu sahədə materillarından istifadə edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi** onunla izah oluna bilər ki, bu vaxta qədər Azərbaycan hüquq doktrinasında əqli mülkiyyət hüququnun konstitusiya hüquqi tənzimi və təminatları məsələsi hər hansı kompleks elmi tədqiqat predmeti olmamışdır.

Bundan əlavə, Azərbaycan Respublikasında əqli mülkiyyət hüququnun konstitusiya hüquqi tənzimi və təminatları məsələsi ilk dəfə olaraq bir sıra xarici ölkələrin qanunvericiliyi ilə müqayisəli şəkildə tədqiq edilmişdir. Nəzəri mənbələrin və empirik materialların kompleks təhlilini rəhbər tutan müəllif yenilik elementi kimi bir çox anlayışları və nəticələri işləyib əsaslandırır, əqli mülkiyyət hüququnun konstitusion təminatları üçün mühüm əhəmiyyətə malik olan bir sıra aktual məsələlərin həllinin yeni qaydalarını təklif edir.

Tədqiqatın elmi yeniliyi müdafiəyə təqdim olunan aşağıdakı **yeni elmi müddəalarda** əks olunur:

1. Əqli mülkiyyətə müəllif tərəfindən bu cür tərif verilir: "Əqli mülkiyyət **-** insanın öz zəkasına, fərdi yaradıcı qabiliyyətinə uyğun olaraq, peşəkar və ya həvəskar səviyyədə, müstəqil həyata keçirdiyi əqli (intellektual) fəaliyyətin qeyri-maddi məhsuludur."

2. Milli qanunvericilikdə "əqli mülkiyyət hüquqları" termini əsas hüquqi kateqoriya kimi çıxış edərək leqal anlayışı müəyyənləşdirilsə də, "əqli mülkiyyət" termini barəsində vahid leqal anlayış nəzərdə tutulmamışdır. Bu isə həm hüquq elmində araşdırmalar zamanı, həm də əqli mülkiyyət hüquqlarının tətbiqi və ya müdafiəsi prosesində anlaşılmazlıqların, mübahisələrin yaranmasına səbəb olacaq. Qeyd olunanları nəzərə alaraq, müəllif "əqli mülkiyyət" termininin vahid hüquqi anlayışının qanunvericilik səviyyəsində təsbit edilməsini təklif edir.

3. Müəllifin fikrincə, əqli mülkiyyət hüququnun əsas insan və vətəndaş hüquq və azadlıqları sistemində yeri onun klassik mənada mülkiyyət hüququnun kateqoriyalarından biri deyil, müstəqil hüquqi kateqoriya olması ilə müəyyən edilir.

Klassik mənada mülkiyyət hüququ quldarlıq quruluşunun mövcud olduğu qədim Romada meydana gəlmişdi. Roma hüququ insanları (qulları), mülkiyyət anlayışına daxil edir, mülkiyyət hüququnun obyekti kimi qəbul edirdi. Buna uyğun olaraq, insanın əqli fəaliyyətinin nəticələri, əqli mülkiyyət

hüququ klassik mənada mülkiyyət hüququnun xüsusi növü kimi qəbul edilmişdi. Lakin müasir dünya insan fərdinə analoji yanaşmanı qəbul etmir. Bu baxımdan, insan mülkiyyət hüququnun obyekti olmadığı kimi, bilavasitə insan zəkasının nəticələrini nəzərdə tutan əqli mülkiyyət hüququ da klassik mənada mülkiyyət hüququnun xüsusi növü kimi qəbul edilə bilməz.

Azərbaycan Respublikasının Konstitusiyası "Əsas insan və vətəndaş hüquq və azadlıqları" adlı ikinci fəsildə əqli mülkiyyət hüququ (maddə 30) və mülkiyyət hüququ (maddə 29), yaradıcılıq azadlığını (maddə 51) müxtəlif normalar şəklində nəzərdə tutmaqla, onları fərqləndirmiş, müstəqil hüquq və azadlıqlar kimi təsbit etmişdir.

4. Müəllifin fikrincə, əqli mülkiyyət hüququ ilə klassik mənada mülkiyyət hüququnun müstəqil hüquqlar olduğunu təsdiq edən bir sıra cəhətləri fərqləndirilmişdir. Əqli mülkiyyət hüququnu klassik mənada mülkiyyət hüququndan fərqləndirən əsas xüsusiyyətlər müəyyən edilmişdir:

- Əqli mülkiyyət hüququnun predmeti əşya xarakterinə malik olmayan ideyalar, məfhumlar, yaradıcı təxəyyül, bilik, insanın mənəvi-zehni fəaliyyətinin nəticəsidir.

- Əqli mülkiyyət hüququnun predmetini (elm, incəsənət əsərləri, ixtiralar, əqli fəaliyyətin digər nəticələri) yaradan insanın əqli fəaliyyəti, istedadı, biliyidir. Bunlar isə azad insan zəkasına və ruhuna aiddir. Əqli fəaliyyətin nəticələri bilavasitə insandan yarandığından əşya kimi qəbul edilə bilməz. İnsan əşya deyil, buna görə də insan zəkasını və ruhunu ifadə edən mənəvi-zehni fəaliyyətin nəticəsi əşya sayıla bilməz.

- Əqli mülkiyyət hüququnun obyekti qanunvericiliklə müəyyən edilmiş maddi formada ifadə edildikdə, yaxud mülki hüquq münasibətlərinin obyekti, mülki hüquqi müqavilənin predmeti qismində çıxış etdikdə əşya xarakteri əldə edir. Məsələn: kitab üzərində mülkiyyət hüququ onun sahibi olan şəxsə, əqli mülkiyyət hüququ isə əsərin yaradıcısı olan insan fərdinə məxsusdur.

- Əqli mülkiyyət hüququ insanın doğulduğu andan yaranır və ölümü ilə xitam verilmir. Çünki bu hüquq bilavasitə insanın zəkası ilə əlaqədar olaraq meydana çıxır və yaş kateqoriyası ilə məhdudlaşmır. İnsan zəkasının fərdiliyini nəzərə alaraq, bu hüququn başlanma anı kimi hər hansı yaş dövrünün, dəqiq vaxtın fərqləndirilməsi mümkünsüzdür. Bir sıra hallarda əqli mülkiyyət hüququnun vərəsəlik qaydasında ötürülməsi mümkündür (Məsələn, əmlak xarakterli intellektual hüquqlar). Əqli mülkiyyət hüququnun bəzi növləri isə insan öldükdən sonra nə vərəsəlik qaydasında ötürülür, nə də xitam verilir. Məsələn, qeyri-əmlak xarakterli intellektual hüquqlar

(müəlliflik hüququ, ad hüququ, əsərin (ifanın) toxunulmazlığı hüququ və s.) vərəsəlik qaydasında ötürülmür, həmçinin insanın ölümü ilə xitam verilmir.

- Əqli mülkiyyət hüququnun yaranması üçün yaradıcı insanın tam hüquq və fəaliyyət qabiliyyətli olması mütləq şərt deyil. Məsələn, ruhi-əsəb halının müxtəlifliyi ilə fərqlənmiş yazıçılar, bəstəkarlar və digər yaradıcı insanlar tarixən müxtəlif fəaliyyət sahələrində müşahidə olunmuşdur.

5. Əqli mülkiyyət hüququnun konstitusiya hüquqi müdafiəsinə müəllif tərəfindən bu cür tərif verilir: "Əqli mülkiyyət hüququnun konstitusiya hüquqi müdafiəsi - dövlətin ali qanunu olan Konstitusiya və onun əsasında qəbul edilmiş sahəvi qanunvericilik aktları ilə məyyənləşdirilən, əqli mülkiyyət hüququnun həyata keçirilməsini, hüquqi müdafiənin müxtəlif formalarını (özünümüdafiə, məhkəmə müdafiəsi, beynəlxalq müdafiə və s.) təmin etmək məqsədilə tətbiq olunan, qanunverici, təşkilati-texniki və digər üsulları nəzərdə tutan kompleks tədbirlər sistemidir."

6. Müəllifin fikrincə, əqli mülkiyyət hüququnun həyata keçirilməsi və müdafiəsi mexanizminin təkmilləşdirilməsi, səmərəliliyin daha da artırılması məqsədilə idarəetmənin mərkəzləşdirilməsi zəruridir.

Müəllif əqli mülkiyyətin müxtəlif növləri üzrə funksiyaları həyata keçirən icra orqanlarının vahid idarəetmə orqanında (məsələn, Əqli Mülkiyyət Mərkəzi) birləşdirilməsi və bu orqanın publik hüquqi şəxs statusunda fəaliyyət göstərməsini təklif edir.

7. Müəllifin fikrincə, əqli mülkiyyət məsələləri sahəsində idarəetmənin mərkəzləşdirilməsi aşağıdakı aspektlərdən məqsədəuyğun hesab olunur:

- Əqli mülkiyyət hüququna aid məsələlər, həyata keçirilməsinin real vəziyyəti (inkişaf, maneələr, nailiyyətlər, nöqsanlar), elm, təhsil, mədəniyyət və digər sahələrdə əqli fəaliyyətin inkişafı, görülən tədbirlər kompleks şəkildə vahid mərkəzin məlumat bazasında saxlanılar.

- Əqli mülkiyyət hüququnun müxtəlif növlərinə dair real vəziyyətin vahid mərkəzdə kompleks şəkildə və müqayisəli təhlil edilməsi, inkişaf tendensiyalarının müəyyənləşdirilməsi, inkişafyönümlü operativ tədbirlərin dəqiqləşdirilməsi və tətbiqi asanlaşar.

- Əqli fəaliyyət, əqli mülkiyyət hüquqlarınn həyata keçirilməsi üzrə müraciətlərin, şikayətlərin vahid orqana bildirilməsi real vəziyyətin öyrənilməsinə, beləliklə də, proseslərə operativ reaksiyaların verilməsinə köməklik göstərər.

- Əqli fəaliyyətin nəticələrindən idarəetmənin, iqtisadiyyatın müxtəlif sahələrində istifadə edilməsi üçün onların tanıdılmasına, proseslərin kordinasiya edilməsinə dəstək verər.

- Əqli fəaliyyətin inkişaf istiqamətləri ilə real tələblərin uyğunluğunun müqayisəsində real ehtiyacın yarandığı sahələr müəyyənləşdirilər və bu istiqamətə yönəlmiş əqli fəaliyyət stimullaşdırılar. Məsələn, qeyri-neft sektorunun inkişafı prosesində bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq, daha çox tələb olunan intellektual məhsulların yaradılmasına ehtiyac müəyyənləşdirildikdən sonra bu istiqamətdə əqli fəaliyyətin stimullaşdırılması.

- Əqli mülkiyyət hüququnun müxtəlif növlərinə dair məsələlərin nizamlanması istiqamətində fəaliyyət göstərən eyni və ya oxşar funksiyalı icra strukturlarının birləşdirilməsi ilə müvafiq strukturların və dövlət qulluğu vəzifələrinin təsnifat qrupuna uyğun olaraq, təşkilati xərclər, işçi heyətinin saxlanmasına çəkilən xərclər və digər xərclərin azaldılmasına təsir göstərər. Bu isə öz növbəsində büdcə vəsaitlərindən qənaətlə istifadə olunması üçün töhfə verər.

**Tədqiqatın nəticələrinin elmi və təcrübi əhəmiyyəti** aşağıdakılardan ibarətdir:

- Dissertasiyada irəli sürülmüş nəzəri təkliflər əqli mülkiyyət institutunun elmi bazasını zənginləşdirə bilər;
- Dissertasiya işində əsaslandırılmış şəkildə irəli sürülən təklif və nəticələr əqli mülkiyyətlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi zamanı istifadə edilə bilər;
- Dissertasiya işinin nəticələrindən sonrakı elmi tədqiqatlar aparılarkən, habelə hüquq fakültələrində "Konstitusiya hüququ" fənni tədris edilərkən istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın əsas müddəaları müəllifin nəşr olunmuş elmi əsərlərində geniş şərh edilmişdir. Tədqiqatın müəyyən aspektləri beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslarda edilən çıxışlarda yer almışdır.

**Tədqiqat işinin quruluşu** girişdən, altı yarımfəsili əhatə edən iki fəsildən, nəticədən, istifadə edilmiş ədəbiyyat siyahısından və işə edilmiş əlavələrdən ibarətdir.

# İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş hissəsində** tədqiqat mövzusunun aktuallığı, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyən edilmiş, metodoloji və nəzəri əsasları, elmi yeniliyi və müdafiəyə çıxarılan əsas müddəalar, təcrübi və nəzəri əhəmiyyəti şərh olunmuş, aprobasiyası və strukturu barədə məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Əqli mülkiyyətin yaranması, inkişaf mərhələləri, əsas insan hüquqları və azadlıqları sistemində yeri və rolu"** adlanır və üç paraqrafdan ibarətdir.

**"Əqli mülkiyyətin anlayışı"** adlanan birinci paraqrafda müəllif "əqli mülkiyyət", "əqli mülkiyyət hüququ" anlayışlarının məzmununu həm elmi-nəzəri aspektdən, həm də qanunvericilik nöqteyi-nəzərindən araşdırmış, bu mövzuda mövcud fikirləri ümumiləşdirmiş, onlara tənqidi yanaşaraq məsələ ilə bağlı müəllif anlayışı irəli sürmüşdür.

Müasir dövrdə əqli mülkiyyət fəlsəfəsinin sərhədləri hüquq fəlsəfəsi, iqtisadi fəlsəfə və mənəvi fəlsəfənin vəhdətindən formalaşır[1].

Ümumi anlamda intellektual mülkiyyət dedikdə, insan zəkasının hər hansı məhsulu nəzərdə tutulur. İntellektual mülkiyyət ənənəvi olaraq 4 kateqoriyadan ibarət olur: müəlliflik hüququ, patent, əmtəə nişanı, ticarət nişanı[2]. Lakin rəqəmsal dövr çox şeyi dəyişdirib. Onun yaratdığı kontent bu gün, eyni zamanda, həm əsas məhsul, həm də rəqəmsal iqtisadiyyatın mənbəyi hesab olunur, eynilə rəqəmsal fayl kimi – bu, həm texnologiyadır, həm də istehsal yeri. Əqli mülkiyyətin dünyada bu günkü fəaliyyət konteksti onun yarandığı vaxtdan prinsipial olaraq fərqlənir [3].

Qeyd olunur ki, əqli mülkiyyət bilavasitə insanın zəkası və əqli fəaliyyəti ilə əlaqəli kateqoriyadır. İntellektual fəaliyyətin xüsusi bir növü yaradıcılıq fəaliyyətidir. İntellektual fəaliyyət bütövlükdə rasional dərketmənin imkanlarından istifadə etməkdirsə, yaradıcılıq fəaliyyəti rasional dərketmənin imkanlarından istifadə edərək keyfiyyətcə yeni forma və nəticələrin əldə olunmasıdır.

Müəllif tərəfindən əqli mülkiyyətin mənşəyi və mahiyyəti haqqında təbii hüquq nəzəriyyəsi, sənaye mülkiyyəti nəzəriyyəsi, müqavilə nəzəriyyəsi, fərdin hüquqları nəzəriyyəsi, intellektual hüquqlar nəzəriyyəsi,

---

[1]Intellectual Property: Incentives, Rights and Duties. An Introduction to New Frontiers in the Philosophy of Intellectual Property, Cambridge University Press, 2012, p. 1

[2] http://www.law.cornell.edu/wex/intellectual_property 10.06.2014

[3] K.İmanov. İnternet və müəlliflik hüququ:maraqların toqquşması və kompromisin axtarışı. Bakı, 2016, s.21

utilitarianizm nəzəriyyəsi, mənəvi hüquqlar nəzəriyyəsi, standart iqtisadi nəzəriyyə fərqləndirilmişdir.

Təbii hüquq nəzəriyyəsinə görə, ixtiraçının hüququ insan və ya vətəndaşın mənəvi-ruhi yaradıcılığının nəticəsinə bağlı olan təbii hüquqdur. Bu hüququn yaranması üçün dövlət tərəfindən tanınması tələb edilmir, dövlət yalnız bu hüquqların üçüncü şəxslər tərəfindən pozulmasının qarşısını almağa təminat verə bilər.

Sənaye mülkiyyəti nəzəriyyəsinə görə, insanın hər hansı əməyi müəyyən mülkiyyət yaradır, ona görə də ixtiralar və digər qeyri-maddi obyektlərə olan hüquqlar insan əməyinin nəticəsi kimi yaranan mülkiyyətdir.

Müqavilə nəzəriyyəsinə görə, intellektual mülkiyyət müəlliflə cəmiyyət arasında bağlanan müqavilə əsasında yaranır və müəllifin qeyri-maddi, qeyri-əmlak xarakterli hüquqlarını ehtiva edir.

Fərdin hüquqları nəzəriyyəsinə görə, intellektual fəaliyyətin nəticəsi olaraq müxtəlif obyektlərin yaradılması fərdiliyin təzahürüdür və hüquqi müdafiə olunmalıdır.

İntellektual hüquqlar nəzəriyyəsinə görə, intellektual hüquqlar “sui generis” (özünəməxsus, unikal) hüquqlardır. Bu hüquqlar klassik təsəvvürlərdən, əşyalara olan mülkiyyət hüquqlarından zamana, əhatə dairəsinə, istifadəsinin özünəməxsus xüsusiyyətlərinə və digər cəhətlərinə görə çox fərqlənir [1].

Utilitarianizm nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, innovasiyaların stimullaşdırılması məqsədilə intellektual mülkiyyətin yaradılması məqsədəuyğun vasitədir, lakin ictimai monopoliyanın formalaşmaması üçün bu hüquqlar müəyyən dövrlə (müddətlə) məhdudlaşdırılır [2].

Mənəvi hüquqlar nəzəriyyəsinin tərəfdarları hesab edirlər ki, intellektual mülkiyyət insanın əməyi və fərdiliyinin bəhrəsi, nəticəsi olaraq formalaşır, ona görə də insanın mənəvi haqqıdır [3].

Standart iqtisadi nəzəriyyəyə görə, intellektual məhsullar ictimai faydalıdır. Bu məhsullar ictimai faydanı fərdiləşdirməklə ixtiraçılarda yeni məhsullar üçün stimul yaradır [4].

---

[1] W. Fisher. Theories of Intellectual Property. Cambridge University Press, 2001, p. 6

[2] Peter S. Menell. Intellectual Property: General Theories. Berkeley Center for Law and Technology, University of California at Berkeley, 1999, p. 130

[3] Jeanne C. Fromer. Expressive Incentives in Intellectual Property. Virginia Law Review, 2012, p.6

[4] Mark A. Lemley. Intellectual Property Rights and Standard-Setting Organizations. Stanford Law School, 2002, p. 5

İkinci paraqraf **“Əqli mülkiyyət hüququnun əsas insan hüquq və azadlıqları sistemində yeri”** adlanır. Bu paraqrafda müəllif əqli mülkiyyət hüququnun əsas insan hüquq və azadlıqları sistemində yerini əhatəli şəkildə araşdırmış, hüquq nəzəriyyəsində və müxtəlif dövlətlərin qanunvericilik təcrübəsində formalaşmış fikirləri tədqiq etmiş, təbii hüquqlar və pozitiv hüquqlar anlayışlarını təhlil etmiş, əqli mülkiyyət hüququnu insanların təbii hüququ olaraq nəzərdən keçirmişdir.

Əqli mülkiyyət hüququ ilə mülkiyyət hüququnun qarşılıqlı münasibətinə əqli mülkiyyət hüququ mülkiyyət hüququnun xüsusiləşmiş bir növü olması və əqli mülkiyyət hüququ mülkiyyət hüququnun kateqoriyalarından biri deyil, müstəqil hüquqi kateqoriya olması haqqında iki mövqe fərqləndirilmişdir.

Müəllif əqli mülkiyyət hüququnun klassik mənada mülkiyyət hüququnun növü deyil, müstəqil hüquq olması mövqeyindən çıxış edərək, mövqeyini elmi cəhətdən əsaslandırır.

Əqli fəaliyyətin xüsusi növü kimi yaradıcılıq fəaliyyəti müəyyən olunmuş, bununla əlaqədar olaraq Azərbaycan Respublikasında yaradıcılıq azadlığının konstitusiya hüquqi əsasları məsələsi araşdırılmışdır.

İddiaçı qeyd edir ki, Azərbaycan Respublikasında yaradıcılıq azadlığı ilk dəfə 21 aprel 1978-ci il tarixli Konstitusiyanın 45-ci maddəsində vətəndaşların malik olduğu hüquq kimi təsbit olunmuşdu. Bu normaya əsasən, “Kommunizm quruculuğu məqsədlərinə uyğun olaraq, Azərbaycan SSR vətəndaşlarının elmi, texniki və bədii yaradıcılıq azadlığı təmin edilir. Bu azadlıq elmi tədqiqatların, ixtiraçılıq və səmərələşdiricilik fəaliyyətinin daha da genişləndirilməsi, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi ilə təmin olunur. Dövlət bundan ötrü lazımi maddi şərait yaradır, könüllü cəmiyyətlərə və yaradıcılıq ittifaqlarına yardım göstərir, ixtiraların və səmərələşdirici təkliflərinin xalq təsərrüfatında və həyatın başqa sahələrində tətbiqini təşkil edir. Müəlliflərin, ixtiraçıların və səmərələşdiricilərin hüquqları dövlət tərəfindən qorunur.”

21 aprel 1978-ci il tarixli Azərbaycan SSR-in Konstitusiyasından fərqli olaraq, 12 noyabr 1995-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyası yaradıcılıq azadlığını yalnız vətəndaşlara aid hüquq və azadlıqlar kateqoriyasında qeyd etməmiş, vətəndaşlığından və digər mənsubiyyət faktorlarından asılı olmayaraq, hər kəsin yaradıcılıq azadlığını tanımışdır.

Müəllif hesab edir ki, 21 aprel 1978-ci il tarixli Azərbaycan SSR-in Konstitusiyasının qeyd olunan norması ədəbiyyata, incəsənətə, elmi, texniki və bədii yaradıcılığa daha çox vahid ideologiyaya uyğun şəkildə həyata keçirilən ictimai-siyasi təbliğat vasitəsi kimi yanaşırdı. Bu hüququn

bütün insanlar barəsində deyil, vətəndaşlar barəsində müəyyənləşdirilməsində qeyd edilən faktorun rolu böyük idi. Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyası isə insan hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi bəyan etməklə bərabər, insanın dəyəri və insan hüquqları məsələsini önə çəkdi, insanın özünü ifadə, özünü inkişaf etdirmək imkanı olaraq əqli mülkiyyət hüququnu, yaradıcılıq azadlığını təsbit etdi.

Üçüncü paraqraf **"Əqli mülkiyyətin konstitusion-hüquqi tənzimi və digər hüquqlarla qarşılıqlı əlaqəsi"** adlanır. Bu paraqrafda müəllif əqli mülkiyyətin nizamamlanması sahəsində mövcud hüquq normalarını araşdırmış, konstitusion hüquq və azadlıqların müxtəlif meyarlarla təsnifatını aparmış, əqli mülkiyyət hüququnun digər hüquqlarla qarşılıqlı əlaqəsini müəyyən etmişdir. Müəllif tərəfindən milli qanunvericilik normalarının müqayisəli təhlili aparılmış, qanunvericilikdə mövcud olan ziddiyyətlərin və boşluqların aradan qaldırılması məqsədilə konkret təkliflər irəli sürülmüşdür.

Hüquq və azadlıqların təmini - hüquq və azadlıqların realizəsi, qorunması və müdafiəsi üçün zəruri şərtlərin, qanuni mexanizmlərin, normativ-hüquqi bazanın yaradılmasıdır.

Əqli mülkiyyət hüququnun konstitusiya hüquqi mənbələrinin dairəsi Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinə tələbi üzrə, dövlətin qanunvericilik sistemi əsasında müəyyənləşdirilir. Bura konstitusiya, referendumla qəbul edilmiş aktlar, qanunlar, fərmanlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr daxildir.

Azərbaycan Respublikasının qüvvədə olan Konstitusiyasına əsasən, əqli mülkiyyət məsələlərinə dair aşağıdakı normativlər təsbit edilmişdir:

- Əqli mülkiyyət hüququnun tanınması və qanunla qorunması prinsipi (maddə 30);
- Yaradıcılıq azadlığı və müxtəlif yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat prinsipi (maddə 51);
- Mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək prinsipi (maddə 40);
- Əqli mülkiyyət hüquqlarına tətbiq edilən, bütövlükdə əsas insan hüquq və azadlıqlarının tanınması və müdafiəsinə dair prinsiplər: insan hüquq və azadlıqlarının toxunulmaz, pozulmaz və ayrılmaz olması prinsipi (maddə 24.1), hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquq və azadlıqlarını müdafiə etmək hüququnun olması və dövlətin hər

kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verməsi prinsipi (maddə 26.1), azad sahibkarlığa təminat verilməsi və iqtisadi münasibətlərdə inhisarçılığın, haqsız rəqabətin yol verilməzliyi prinsipi (maddə 15.2), fikir və söz azadlığı üçün təminatlar və məhdudlaşdırılmasının əsasları (maddə 47) və s.;

- Əqli mülkiyyət hüququnun hüquqi nizamlanması sahəsində dövlət orqanlarının səlahiyyətlərinin və vəzifələrin müəyyənləşdirilməsi prinsipi (maddə 71.1., maddə 94.1.13);

- Azərbaycan Respublikasının Konstitusiyası, qanunvericilik sisteminə daxil olan digər normativ-hüquqi aktlar və beynəlxalq müqavilələrin əqli mülkiyyət hüququnun nizamlanması üzrə münasibətləri;

- Əsas hüquq və azadlıqların müdafiəsi prinsipi və təminatlar (maddə 26, maddə 57, maddə 60, maddə 71).

Azərbaycan Respublikası Konstitusiyasının 30.2-ci maddəsi əqli mülkiyyət hüququnun hüquqi tənzimlənməsini nəzərdə tutur (*"Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur"*). Müəllif qeyd edir ki, qeyd olunan konstitusiya norması əqli mülkiyyət hüququnun bütün növlərinin qanunla qorunduğunu bəyan etməklə yanaşı, həm də qanunverici orqanın üzərinə insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsinə yönəldilmiş xüsusi qanunların qəbul edilməsi üzrə vəzifələr qoymuş olur.

Azərbaycan Respublikası Konstitusiyasının 94.1.13-cü maddəsi əqli mülkiyyət hüququna dair ümumi qaydaların müəyyənləşdirilməsini qanunverici orqan olan Azərbaycan Respublikası Milli Məclisinin funksiyalarına aid etmişdir. Əqli mülkiyyət hüquqlarının nizamlanması sahəsində Milli Məclisin əsas vəzifəsi əqli mülkiyyət hüquqlarının realizəsi, qorunması üçün müvafiq qanunların qəbul edilməsidir.

"Azərbaycan:2020 Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının "Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi" başlıqlı 8-ci maddəsində qeyd olunmuşdur ki, qanunvericilik təkmilləşdiriləcək, piratçılıq və kontrafaksiya da daxil olmaqla əqli mülkiyyət hüquqlarının pozulmasına qarşı səmərəli tədbirlər görüləcəkdir.

Müəllif qeyd edir ki, Azərbaycan Respublikasında əqli mülkiyyət hüququnun müxtəlif növləri (müəlliflik hüququ və əlaqəli hüquqlar, patent və s.) barəsində, əqli mülkiyyət hüquqlarının qorunması sahəsində ("Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu) qanunvericilik aktları olsa da, əqli mülkiyyət hüququnun bilavasitə özünə dair normaları nəzərdə tutan vahid

qanunverici akt yoxdur. Bu səbəbdən də müəllif əqli mülkiyyət hüququ üzrə münasibətləri nizamlayan vahid normativ hüquqi aktın qəbul edilməsinin zəruriliyini vurğulayır.

**"Əqli mülkiyyət sahəsində hüquq və azadlıqların müdafiəsi"** adlanan **ikinci fəsil** üç paraqrafdan ibarətdir.

**"Əqli mülkiyyətin konstitusiya hüquqi müdafiəsinin anlayışı"** adlanan birinci paraqrafda əqli mülkiyyət hüququnun müdafiəsinin konstitusion mexanizmi tədqiq olunmuş, bu sahədə qanunvericilik normaları təhlil edilərək bir sıra təkliflər irəli sürülmüşdür.

Əqli mülkiyyət hüququnun qanunla qorunması əqli və yaradıcı fəaliyyət sahəsində konstitusiya hüquqi rejimin müəyyənləşdirilməsidir. Bu konstitusiya hüquqi rejim konstitusion-hüquqi prinsip və təminatları, eləcə də onların həyata keçirilməsi üçün sahəvi qanunvericilik normalarını əhatə edir. Əqli mülkiyyət hüququnun müdafiəsi - milli qanunvericilikdə nəzərdə tutulmuş, subyektiv hüquq və azadlıqların həyata keçirilməsini, eləcə də hüquq və azadlıqların müdafiəsinin müxtəlif formalarını (məhkəmə müdafiəsi, vətəndaşların özünümüdafiəsi və s.) təmin etmək məqsədilə tətbiq olunan, qanunverici, iqtisadi, təşkilati- texniki və digər üsulları nəzərdə tutan kompleks tədbirlər sistemidir.

Müəllif qeyd edir ki, əqli mülkiyyət hüququnun müdafiəsinin konstitusiya hüquqi mexanizmi dedikdə, dövlətin ali qanunu olan Konstitusiya və onun əsasında qəbul edilmiş sahəvi qanunvericilik aktları birlikdə başa düşülür.

Əsas insan hüquq və azadlıqlarından biri olaraq əqli mülkiyyət hüququnun müdafiəsinin əsasları konstitusiya hüquq normalarında təsbit edilmişdir. Azərbaycan Respublikası Konstitusiyası qanun və məhkəmə qarşısında bərabərlik (25.1-ci maddə), hüquq və azadlıqların müdafiəsinə dövlət təminatının verilməsi və hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ (26-cı maddə), dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ (57.1-ci maddə), yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ (61-ci maddə), dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququnu (68.2-ci maddə) əsas insan və vətəndaş hüquq və azadlıqları kimi tanımışdır.

Əqli mülkiyyət hüququnun müdafiəsinin məhkəməyəqədər və məhkəmə qaydasında olmaqla iki qaydası fərqləndirilmişdir.

Milli qanunvericilikdə əqli mülkiyyət hüququnun məhkəmə vasitəsilə müdafiə mexanizmi və icra hakimiyyəti orqanları vasitəsilə müdafiə mexanizmi fərqləndirilmişdir.

Əqli mülkiyyət hüququnun pozulması zamanı istifadə edilən prosedurlar və müdafiə vasitələrinin üç növü fərqləndirilmişdir: 1) mülki hüquqi prosedurlar və müdafiə vasitələri; 2) inzibati prosedurlar və müdafiə vasitələri; 3) cinayət prosedurları və müdafiə vasitələri.

Əqli mülkiyyət hüququnun müdafiəsi üçün mühüm kateqoriyalardan biri hüquqi məsuliyyət məsələsidir. Hüquqi məsuliyyət- hüququn tələblərini icra etməməyə görə dövlət məcburiyyətidir[1]. Bununla əlaqədar olaraq mülki məsuliyyət, inzibati məsuliyyət və cinayət məsuliyyəti fərqləndirilmişdir.

**"Əqli mülkiyyət hüququnun müdafiəsinin həyata keçirilməsi mexanizmi"** adlanan ikinci paraqrafda əqli mülkiyyət hüququnun müdafiəsi mexanizmi araşdırılır, müxtəlif meyarlara görə təsnifatı aparılır, müdafiənin həyata keçirilməsi üzrə səlahiyyətli idarəetmə orqanlarının daha da təkmilləşdirilməsi üçün təkliflər irəli sürülür.

Əqli mülkiyyət hüququnun konstitusiya-hüquqi müdafiəsi mexanizmi milli və beynəlxalq hüquq normalarının məcmusundan formalaşır.

Əqli mülkiyyət hüququnun konstitusiya hüquqi müdafiəsi mexanizminin prinsipləri bütövlükdə insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmi prinsiplərinin məzmunu ilə əlaqəlidir. Bu sahədə beynəlxalq aktların tələbləri əsasən, dövlətlər daxili mexanizmlərin və şərtlərin yoxluğuna istinad edərək insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində tədbirlər görməkdən boyun qaçıra bilməzlər, bu cür fəaliyyətsizlik yolverilməzdir.

İnsan hüquqlarının müdafiəsi sahəsində milli və regional mexanizmlər fərqləndirilir [2]. Daha sonra insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsinin 5 forması fərqləndirilir[3]: hüquq və azadlıqların özünümüdafiəsi; hüquq və azadlıqların dövlət tərəfindən müdafiəsi; hüquq və azadlıqların yerli özünüidarəetmə orqanları tərəfindən müdafiəsi; hüquq və azadlıqların ictimai müdafiəsi; hüquq və azadlıqların beynəlxalq müdafiəsi.

Azərbaycan Respublikasında əqli mülkiyyət hüququnun dövlət tərəfindən müdafiə mexanizminin müvafiq səlahiyyətli icra hakimiyyəti

---

[1] Hüquq Ensiklopedik Lüğəti, Bakı, 1991, s. 512

[2] Ə.İ.Əliyev. İnsan hüquqları. Dərslik. Bakı, 2013, s. 342- 429

[3] http://law.edu.ru/book/book.asp?bookID=124585 18.12.2014

orqanları, İnsan hüquqları üzrə müvəkkil (ombudsman), məhkəmə orqanları sistemindən ibarət olduğu qeyd olunmuşdur.

Müəllif tərəfindən bir sıra ictimai birliklərə (Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Rəssamlar İttifaqı) 08.01.2016-cı il və 22.01.2016-cı il tarixli yazılı sorğularla müraciət edilmiş, əqli fəaliyyət və onun xüsusi növü olan yaradıcı fəaliyyət prosesində yaranan hüquqların müdafiəsi sahəsində ictimai birliklərin fəaliyyət imkanları araşdırılmışdır. İctimai Birliklər tərəfindən verilmiş şifahi məlumatlar əsasında məlum olmuşdur ki, hüquqlarının müdafiəsi məqsədilə heç bir şəxs tərəfindən Birliyə müraciət olmamışdır.

Müəllif Azərbaycan Respublikasında əqli mülkiyyət hüququnun müdafiəsi mexanizmlərini təhlil etmiş, əqli mülkiyyət hüququnun müxtəlif növləri üzrə fəaliyyət göstərən icra hakimiyyəti orqanlarının vahid orqan şəklində birləşdirilməsini, idarəetmənin mərkəzləşdirilməsini təklif etmişdir.

**“Əqli mülkiyyətin müdafiəsinin konstitusion-hüquqi problemləri”** adlanan üçüncü paraqrafda əqli mülkiyyətin müdafiəsi sahəsində fəaliyyət göstərən dövlət hakimiyyət orqanlarının səlahiyyətləri, bu orqanlara əqli mülkiyyətin müdafiəsi məqsədilə edilmiş müraciətlərin statistik məlumatları araşdırılmış, bu sahədə mövcud nəzəri və təcrübi məsələlər nəzərdən keçirilmiş, bir sıra statistik materiallar öyrənilmişdir.

Müəllif qeyd edir ki, 2010-2015-ci illər ərzində əqli mülkiyyət hüququnun müdafiəsinə dair işlər üzrə məhkəmə təcrübəsinin öyrənilməsi məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə yazılı sorğu ilə müraciət olunmuşdur. Yazılı sorğuya cavab olaraq, Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının 13.01.2016-cı il tarixli, 10ü-31/16 nömrəli məktubu ilə Ali Məhkəmənin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi tərəfindən bildirilmişdir ki, əqli mülkiyyət hüququnun müdafiəsinə dair işlər üzrə məhkəmə təcrübəsi öyrənilməmişdir. Eyni zamanda, rayon və şəhər məhkəmələri tərəfindən baxılmış həmin kateqoriya işlərin statistikası ilə bağlı aidiyyatı üzrə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə müraciət etmək məsləhət görülmüşdür.

Azərbaycan Respublikasının Ali Məhkəməsinin qeyd olunan cavab məktubundan göründüyü kimi, əqli mülkiyyət hüququnun müdafiəsi sahəsində məhkəmə təcrübəsi öyrənilməmişdir. Müəllifin fikrincə, bu hal əqli mülkiyyət hüququnun müdafiəsi mexanizmlərində, qanunvericilik normalarının tətbiqində boşluqların, ziddiyyətlərin aşkar olunmasına, mexanizmlərin və hüquq normalarının təkmilləşdirilməsinə mənfi təsir göstərir. Əqli mülkiyyət hüququnun aktuallığının daha da artması, qeyri-

neft sektorunun inkişafına təsir imkanları, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan:2020 Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında əqli mülkiyyət məsələlərinin əhəmiyyətinin qeyd olunmasını nəzərə alaraq, məhkəmə təcrübəsinin öyrənilməsi zəruridir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 01.02.2016-cı il tarixli, 02/C-438 nömrəli məktubla təqdim olunmuş məlumatlara əsasən, Azərbaycan Respublikasında 2010-2015-ci illər ərzində əqli mülkiyyət hüququnun müdafiəsi sahəsində məhkəmə təcrübəsinə dair statistik məlumatlar cədvəl 1-də verilmişdir:

**Cədvəl 1.**

| **İllər** | **Daxil olmuşdur** | **Cəmi baxılmışdır** | **Qətnamə qəbul olunub** | **İddia təmin edilmişdir** |
|---|---|---|---|---|
| **2010** | 19 | 17 | 13 | 11 |
| **2011** | 23 | 19 | 8 | 6 |
| **2012** | 15 | 15 | 9 | 7 |
| **2013** | - | - | - | - |
| **2014** | - | - | - | - |
| **2015 (6 ay)** | 3 | 2 | 1 | 1 |

Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında məhkəmə hakimiyyəti konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələrlə həyata keçirilir və məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir. Məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

Müəllif dünya praktikasına müraciət edərək, bır sıra dövlətlərin nümunəsində (Rusiya Federasiyası, Böyük Britaniya) əqli mülkiyyət hüququ üzrə ixtisaslaşdırılmış məhkəmələrin fəaliyyətini araşdırmış, Azərbaycan Respublikasında bu sahədə ixtisaslaşdırılmış məhkəmələrin formalaşdırılması perspektivlərini təhlil etmişdir.

İddiaçının fikrincə, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 01.02.2016-cı il tarixli, 02/C-438 nömrəli məktubla təqdim edilmiş statistik məlumatlardan göründüyü kimi, Azərbaycan

Respublikasında əqli mülkiyyət hüquqlarının müdafiəsi sahəsində müraciətlərin və məhkəmə proseslərinin sayı çox deyil. Bu səbəbdən də hazırda ölkəmizdə ayrıca İntellektual Hüquqlar üzrə Məhkəmənin formalaşdırılması zərurəti görünmür. Lakin tədricən intellektual mülkiyyət, intellektual hüquqlar sahəsində münasibətlər genişləndikcə, əlavə müdafiə mexanizmlərinə ehtiyac yarandıqda xüsusi ixtisaslaşdırılmış məhkəmələrin yaradılması zərurəti istisna deyil.

24 dekabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqındaAzərbaycan Respublikası Konstitusiya Qanunu insan hüquq və azadlıqlarının müdafiəsinin məhkəmə qaydası hüququnu dəqiqləşdirmiş, xüsusi səlahiyyətli məhkəmə orqanı olan Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciətin əsaslarını təsbit etmişdir.

Müəllif qeyd edir ki, milli qanunvericiliyə əsasən, əqli mülkiyyət hüququnun sahibi yalnız fiziki şəxslər deyil, intellektual hüquqlardan müxtəlif təşkilati-hüquqi formalarda istifadə ilə əlaqədar mülki hüquq münasibətlərində iştirak edən elmi-tədqiqat birlikləri, nəşriyyatlar və digər hüquqi şəxslər də ola bilər. Həm kommersiya hüquqi şəxslər, həm də qeyri-kommersiya hüquqi şəxslərin əqli mülkiyyət hüququnun sahibi olması mümkündür. Bu səbəbdən də yalnız fiziki şəxslərin deyil, hüquqi şəxslərin də əqli mülkiyyət hüququnu konstitusiya ədalət mühakiməsi vasitəsilə müdafiə etməsi hüququnun nəzərdə tutulması məsələsi yaranır.

Belə ki, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən, fiziki və ya hüquqi şəxsin təşəbbüsü və rəhbərliyi altında onun öz adı ilə nəşr edilmək şərti ilə iki və ya daha çox fiziki şəxsin yaratdığı əsər barəsində "kollektiv əsər" hüquqi anlayışının təsbit edilməsi əqli mülkiyyət münasibətlərində hüquqi şəxslərin hüquq və vəzifələrini formalaşdırdığı kimi, onların pozulmuş hüquq və azadlıqlarının bərpa edilməsi məqsədilə bütün qanuni müdafiə mexanizmlərindən istifadə edə bilmək imkanını da labüd edir.

Müəllif "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununa əlavə edilərək, hüquqi şəxslərin, onların təsisçiləri və ya əməkdaşları olan şəxslərin əqli mülkiyyət hüquqları barəsində pozulmuş hüquq və azadlıqlarının bərpa edilməsi, müdafiəsi məqsədilə hüquqi şəxslərin də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun nəzərdə tutulmasını təklif edir. Həmçinin müəllif tərəfindən təklif olunur ki, əqli mülkiyyət hüquqları sahəsində insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə məhkəməyə prosessual müraciət müddəti qanunvericilikdə məhdudlaşdırılmasın.

**Nəticədə** aparılmış təhlillər və araşdırmalar nəticəsində əldə edilmiş nəzəri və təcrübi əhəmiyyətli nəticələr, əqli mülkiyyət hüququ sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində verilmiş təkliflər, tövsiyələr və irəli sürülmüş yeni nəzəri müddəalar ifadə edilmişdir.

**Əlavələrdə** tədqiqat zamanı aparılan təhlillərin əsaslandırılmasında istifadə olunan statistik məlumatlar və rəy sorğularının nəticələri öz əksini tapır.

**Tədqiqat işi ilə əlaqədar müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. Əqli mülkiyyət hüququ və yaradıcılıq azadlığının əsas insan hüquq və azadlıqları sistemində yeri //Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil olunmuş Doktorantların və Gənc Tədqiqatçıların XIX Respublika Elmi konfransının materialları. II hissə, Bakı, 2015, s.116-118.

2. Əqli mülkiyyətin konstitusion-hüquqi anlayışı və əhəmiyyəti // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri. Humanitar elmlər seriyası. № 42, 2015, s. 268-275

3. Конституционно-правовое понятие и значение интеллектуальной собственности //Актуальные вопросы современной науки, г.Санкт-Петербург, 2015, № 4(8), s. 35-38.

4. Конституционно-правовое понятие и значение интеллектуальной собственности// Евразийский юридический журнал, г.Москва, 2015, №10(89), , s. 153-155.

5. Əqli mülkiyyət hüquqlarının universallığı // Beynəlxalq hüquq və inteqrasiya problemləri elmi-analitik və praktiki jurnal, Bakı, 2015, №1(41), s. 95-101.

6. Constitutional Concept and Value of İntellectual Property // 8th International Scientific Conference of Science and Society, London, 2015, №10 (89), s. 140-146.

7. Azərbaycan Respublikasında əqli mülkiyyət hüququnun nizamlanması sahəsində qüvvədə olan qanunvericilik normaları haqqında // Qanun elmi hüquq jurnalı, № 04 (258), 2016, s. 96-100.

8. Əqli mülkiyyət hüququ və mülkiyyət hüququ müstəqil hüquqlar kimi// “Qanun” elmi hüquq jurnalı, Bakı, 2016, № 07(261), s. 51-55.

9. Özünüifadə, yoxsa təbliğat?// “Azərbaycan vəkili” jurnalı, 9-cu nömrə, Bakı 2016, s.37-39

10. Azərbaycan Respublikasında əqli mülkiyyət hüququnun nizamlanması sahəsində idarəetmə məsələləri haqqında// “Qanun” elmi hüquq jurnalı, Bakı, 20167, № 08(274), s. 93-97

# РЕЗЮМЕ

Диссертационная работа на тему «Конституционно-правовое регулирование и гарантии права интеллектуальной собственности в Азербайджанской Республики», представленная Джаби Гюльшан Забит кызы на соискание ученой степени доктора философии по праву по специальности 5607.01 – «Конституционное право; муниципальное право» является самостоятельной, творческой и завершенной научно-исследовательской работой, отражающей совершенно новые научные положения и имеющей очень важное значение с точки зрения изучения права интеллектуальной собственности, а также для широкого анализа актуальных вопросов реализации права интеллектуальной собственности.

Основной целью диссертационного исследования является конституционно-правовое изучение понятий и юридических норм,формирование новых правовых знанийв сфере права интеллектуальной собственности, а также выявление новых возможностей и механизмов регулирования, и защиты праваинтеллектуальной собственности, проведение научных исследований с целью усовершенствования национального законодательства.

Диссертационная работа состоит из введения, двух глав, заключения, списка использованной литературы и приложений.

Во введении обосновывается актуальность темы исследования, указывается степень разработанности, научная новизна темы исследования, приводятся новые положения, выносимые на защиту, цели и задачи, теоретическое и практическое значение исследования.

Первая глава диссертационного исследования называется “Возникновение и развитие права интеллектуальной собственности, место и роль в системе основных прав и свобод человека». В этой главе анализируются история возникновения и формирования,историческая развития права интеллектуальной собственности,проблематика конституционного регулирования права интеллектуальной собственности и конституционное содержание права интеллектуальной собственности в качестве одного из основных прав человека и гражданинав Азербайджанской Республики.

Вторая глава диссертационного исследования называется «Защита прав и свобод в сфере интеллектуальной собственности». В этой главе анализируются такие важные вопросы, как особенности защиты прав и свобод в сфере интеллектуальной собственности, механизмы защиты, конституционное судопроизводство, проблемы конституционно-правового обеспечения свободы права интеллектуальной собственности в Азербайджанской Республики.

В заключении обобщаются выводы, сделанные в диссертации, даются практические рекомендации, формулируются предложения, направленные на совершенствование законодательства.

## SUMMARY

Gulshan Zabit Jabi's dissertation work on the topic of "Constitutional and legal regulation and guarantee of intellectual property rights in the Republic of Azerbaijan" for attaining the degree of Doctor of Philosophy in Law in the specialisation 5607.01- "Constitutional law; municipal law" is an independent, creative and completed scientific research work reflecting absolutely new scientific position and having great importance for the study of intellectual property rights, as well as for a wide analysis of actual issues of realization of intellectual property rights.

The main purpose of the dissertation work is constitutional and legal study of the concepts and legal norms, formation of new legal knowledge in sphere of intellectual property rights, as well as identifying new opportunities and mechanisms for regulating and protection of intellectual property rights, carrying out scientific research in order to improve the domestic law.

Dissertation work contains introduction, two chapters, conclusion and bibliography and applications.

In the introduction is justified the relevance of the research topic, is specified the degree of elaboration, the scientific novelty the research topic, are given new positions taken out on defense, goals and objectives, theoretical and practical significance of work.

The first chapter of the dissertation work is called "The emergence and development of intellectual property rights, the place and role in system of fundamental human rights and freedoms". The history of the emergence and formation, the historical development of intellectual property rights, the problems of constitutional regulation of intellectual property rights and the constitutional content of intellectual property rights as one of the fundamental rights of human and citizen in the Republic of Azerbaijan is analyzed in this chapter.

The second chapter of the dissertation work is called "The defense of rights and freedoms in sphere of intellectual property". The important issues such as the characteristics of defense of the rights and freedoms in the sphere of intellectual property, the defense mechanisms, the constitutional proceedings, the constitutional and legal problems to ensure freedom of intellectual property rights in the Republic of Azerbaijan is analyzed in this chapter.

The conclusions made in the dissertation are generalized, the practical recommendations are given, and the offers directed on perfection of the legislation are formulated in the conclusion.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГЮЛЬШАН ЗАБИТ кызы ДЖАБИ**

# КОНСТИТУЦИОННО-ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ И ГАРАНТИИ ПРАВА ИНТЕЛЛЕКТУАЛЬНОЙ СОБСТВЕННОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**5607.01- «Конституционное право; муниципальное право»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**БАКУ – 2017**